AZƏRBAYCAN BANKLAR ASSOSİASİYASI

# Tədiyə Balansı – 2016

## Tarazlaşma meyilləri

# İçindəkilər


- ✓ **Tədiyə Balansının ümumi mənzərəsi**
- ✓ **Cari Əməliyyatlar Hesabı üzrə meyillər**
- ✓ *Malların hərəkəti üzrə əməliyyatlar*
- ✓ *Xidmətlərin hərəkəti üzrə əməliyyatlar*
- ✓ *Gəlirlərin hərəkəti üzrə əməliyyatlar*
- ✓ **Maliyyə Hərəkəti Hesabı üzrə meyillər**
- ✓ *Birbaşa investisiyaların hərəkəti*
- ✓ *Portfel investisiyaların hərəkəti*
- ✓ *Digər investisiyaların hərəkəti*
- ✓ **Qeyri-neft tədiyə balansında tarazlıq meyilləri**

# Tədiyə Balansının ümumi mənzərəsi

- **2016-cı ildə** Tədiyə Balansında əvvəlki ilə nəzərən nisbi yaxşılaşma müşahidə olunmuşdur. **Tədiyə Balansının kəsri** 2015-ci ildəki 9.2 mlrd. dollardan, **4.1 mlrd. dollara enmişdir** (statistik fərq nəzərə alınmadan).
- Kəsrin kiçilməsi, əsasən maliyyə hərəkəti hesabı üzrə ölkədən çıxışların azalması hesabına baş vermişdir: **Maliyyə Hərəkəti Hesabının kəsri** 9 mlrd. dollardan **2.8 mlrd. dollara qədər azalmışdır**.
- **Cari Əməliyyatlar Hesabı** üzrə 2015-ci ildən etibarən müşahidə edilməkdə olan **kəsir** bir az daha **böyüyərək 1.4 mlrd. dollara yaxınlaşmışdır.** Kəsrin böyüməsi, əsasən neft-qaz sektoru üzrə daxilolmaların azalması hesabına baş vermişdir.



# Cari Əməliyyatlar Hesabı üzrə meyillər

- 2016-cı ildə Cari Əməliyyatlar Hesabının (CƏH) neft-qaz sektoru bölməsində daxilolmalar əvvəlki ilə nəzərən 15.3% azalaraq 12.6 mlrd.dollar təşkil etmiş, ödənişlərdə isə əhəmiyyətli dəyişiklik baş verməmişdir – il ərzində neft-qaz sektoru üzrə 8.2 mlrd.dollar ödəniş həyata keçirilmişdir (əvvəlki ilə nəzərən 1.5% az). Nəticədə CƏH-in neft-qaz sektoru üzrə profisiti 33% azalaraq 4.4 mlrd.dollar təşkil etmişdir.
- 2016-cı ildə CƏH qeyri-neft bölməsinin həm daxilolmalar, həm də ödənişlər bölməsində azalma müşahidə edilmişdir: daxilolmalar 14.7% azalaraq 6.5 mlrd. dollar, ödənişlər isə 14.8% azalaraq 12.2 mlrd.dollar təşkil etmişdir. Nəticədə CƏH-in qeyri-neft bölməsinin kəsiri 15% azalaraq 5.8 mlrd. dollar olmuşdur.



# **Cari Əməliyyatlar Hesabı üzrə meyillər:**
## *Malların ixracı və idxalı (neft-qaz və qeyri-neft)*

2016-cı ildə neft-qaz sektoru üzrə malların ixracı əvvəlki ilə nəzərən ≈ 2 mlrd. dollar azalaraq ≈ 12 mlrd. dollar, idxalı isə 74 mln. dollarlıq azalaraq ≈ 2.3 mlrd. dollar təşkil etmişdir. Nəticədə **neft-qaz sektoru üzrə malların ticarətindən ≈ 9.7 mlrd. dollar həcmində profisit formalaşmışdır ki, bu əvvəlki illə müqayisədə ≈ 2 mlrd. dollar azdır.**







2016-cı ildə qeyri-neft sektoru üzrə malların ixracı əvvəlki ilə nəzərən 338 mln. dollar (≈23%) azalaraq 1.16 mlrd. dollar təşkil etmiş, idxalı isə 695 mln. dollar (≈ 9.4%) azalaraq 6.7 mld. dollar olmuşdur. Nəticədə **qeyri-neft sektoru üzrə malların ticarət balansının kəsri 357 mln. dollar (≈ 6%) kiçilərək 5.5 mlrd. dollar təşkil etmişdir.**

# Cari Əməliyyatlar Hesabı üzrə meyillər:

## *Xidmətlərin ixracı və idxalı (neft-qaz və qeyri-neft)*




2016-cı ildə **neft-qaz sektoru üzrə xidmətlər hesabının kəsri 324 mln. dollar azalaraq ≈ 2.74 mlrd. dollar olmuşdur**: sektor üzrə xidmətlərin ixracı əvvəlki ilə nəzərən 186 mln. dollar (≈ 31%) azalaraq 414 mln. dollar, idxalı isə 510 mln. dollar (≈ 14%) azalaraq 3.15 mlrd. dollar təşkil etmişdir.

2016-cı ildə qeyri-neft sektoru üzrə xidmətlərr hesabının kəsri ≈ 64% (750 mln. dollar) kiçilərək 414 mln. dollar təşkil etmişdir: il ərzində qeyri-neft sektoru üzrə 3.95 mlrd. dollar dəyərində xidmət ixrac edilmiş (əvvəlki ilə nəzərən 3% artım), idxalında isə 12.8%-lik azalma müşahidə olunmuşdur.



# Cari Əməliyyatlar Hesabı üzrə meyillər:
## *Qeyri-neft sektorunun xidmət sahələri üzrə balans*

| | **Daxilolmlar (İxrac)** *(mln.dollarla)* | | | **Ödənişlər (İdxal)** *(mln.dollarla)* | | | **Balans** *(mln.dollarla)* | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | **2014** | **2015** | **2016** | **2014** | **2015** | **2016** | **2014** | **2015** | **2016** |
| Nəqliyyat | 1113.6 | 1518.3 | 1095.4 | 983.9 | 1009.6 | 919.4 | 129.7 | 508.6 | 176.0 |
| Turizm | 2431.5 | 2309.5 | 2713.8 | 3008.4 | 2603.1 | 2494.4 | -576.9 | -293.6 | 219.4 |
| Rabitə | 127.1 | 86.8 | 72.8 | 145.2 | 138.6 | 96.6 | -18.1 | -51.8 | -23.8 |
| Tikinti | 67.7 | 23.0 | 31.1 | 3930.5 | 3519.7 | 2976.0 | -3862.8 | -3496.7 | -2944.9 |
| Maliyyə xidmətləri | 7.6 | 2.7 | 6.7 | 17.6 | 16.4 | 11.1 | -10.0 | -13.7 | -4.4 |
| Hökumət xidmətləri | 28.3 | 20.9 | 27.3 | 199.3 | 119.4 | 88.5 | -171.0 | -98.5 | -61.2 |
| Digər xidmətlər | 521.3 | 482.7 | 421.2 | 2101.9 | 1266.0 | 936.7 | -1580.6 | -783.2 | -515.6 |

Turizm və tikinti sektoru «ucuz» manata daha çox reaksiya verən sektorlar olmuşdur. Bu reaksiya turizm sektorunda özünü ixracın artması və idxalın azalması kimi, tikinti sektorunda isə idxalın kəskin azalması kimi göstərmişdir. Digər xidmətlərdə də balansda yaxşılaşma (tarazlığa meyil) müşahidə olunmuşdur.

# Cari Əməliyyatlar Hesabı üzrə meyillər: *Gəlirlər balansı (ilkin və təkrar gəlirlər)*

2016-cı ildə təkrar gəlirlər (əsasən pul baratları) üzrə həm daxilolmalar, həm də xaricolmalarda kəskin azalma müşahidə edilmişdir: daxilolmalar 606.5 mln. dollar (və ya 49.4%) azalaraq 620.5 mln. dollar, xaricolmalar isə 441.6 mln. dollar (və ya 44%) azalaraq 563.7 mln. dollar təşkil etmişdir.







2016-cı ildə ilkin gəlirlər üzrə həm neft-qaz, həm də digər sektorlarda daxilolmalar azalmış, buna qarşılıq neft-qaz sektorunda ödənişlər artmış, qeyri-neft sektorunda isə azalmışdır. Nəticədə ilkin gəlirlər üzrə neft-qaz sektorunda ≈ 2.8 mlrd. dollarlıq kəsir, qeyri-neft sektorunda isə 114 mln. dollarlıq profisit formalaşmışdır.

# Maliyyə Hərəkəti Hesabı üzrə meyillər

2016-cı ildə Tədiyə Balansının Maliyyə Hərəkəti Hesabı üzrə ölkədən xaricə maliyyə axınları əhəmiyyətli dərəcədə azalmış, Maliyyə Hesabının kəsri 9 mlrd. dollardan 2.8 mlrd. dollara qədər kiçilmişdir:

- 2015-ci ildə pik səviyyəsinə çatan qeyri-neft sektoru üzrə maliyyə hesabı kəsri (-12.6 mlrd. dollar), 2016-cı ildə -3.7 mlrd. dollara qədər azalmışdır;
- 2016-cı ildə neft-qaz sektoru üzrə maliyyə hesabı balansının profisiti əvvəlki iki ilə nəzərən azalaraq 905.6 mln. dollar təşkil etmişdir.



# Maliyyə Hərəkəti Hesabı üzrə meyillər:
*birbaşa investisiyalar balansı*

2016-cı ildə birbaşa xarici investisiyalar (BXİ) balansı üzrə əsas müsbət meyl qeyri-neft sektoru üzrə müşhidə edilmişdir – il ərzində ölkənin qeyri-neft iqtisadiyyatına yönələn BXİ ölkədən xaricə yönələn qeyri-neft investisiyaları 1.15 mlrd. dollar üstələmişdir. Neft-qaz sektoru üzrə BXİ-ın azalmasına baxmayaraq ümumilikdə BXİ üzrə profisit əvvəlki ilə nəzərən 2 dəfədən çox artaraq 1.9 mlrd. dolları ötmüşdür.

| | 2014 | 2015 | 2016 |
|---|---|---|---|
| **Birbaşa investisiyalar üzrə Balans** | **2204.6** | **785.9** | **1926.0** |
| *Neft-qaz sektoru üzrə* | *1651.9* | *1421.4* | *775.7* |
| *Qeyri-neft sektoru üzrə* | *552.7* | *-635.6* | *1150.4* |

# Maliyyə Hərəkəti Hesabı üzrə meyillər: *portfel və digər investisiyalar*

| | 2014 | 2015 | 2016 |
|---|---|---|---|
| **Portfel investisiyaları üzrə Balans** | **1321.4** | **392.4** | **487.9** |
| *Neft-qaz sektoru üzrə* | *0.0* | *749.1* | *575.5* |
| *Qeyri-neft sektoru üzrə* | *1321.4* | *-356.8* | *-87.6* |
| **Digər investisiyalar üzrə Balans** | **-6962.2** | **-10205.5** | **-5176.1** |
| *Neft-qaz sektoru üzrə* | *376.8* | *1385.0* | *-446.2* |
| *Qeyri-neft sektoru üzrə* | *-7339.0* | *-11590.5* | *-4729.9* |

- 2016-cı ildə portfel investisiyalar balansında əvvəlki ilə nəzərən nisbi yaxşılaşma müşahidə edilmiş, bu hesab üzrə profisit 487.9 mln. dollar təşkil etmişdir.: neft –qaz sektoru üzrə 575.5 mln. dollar həcmində profisit, qeyri-neft sektoru üzrə isə 87.6 mln. dollar kəsir formalaşmışdır.
- 2016-cı ildə digər investisiyalar şəklində ölkədən maliyyə axınlarının (xüsusilə qeyri-neft sektoru üzrə) əhəmiyyətli dərəcədə azalması tədiyə balansının maliyyə hesabındakı yaxşılaşmanın əsas mənbəyi olmuşdur: il ərzində qeyri-neft sektoru üzrə «digər investisiyalar balansı»nın kəsri əvvəlki ilə nəzərən ≈ 6.9 mlrd. dollar azalaraq ≈ 4.7 mlrd. dollar təşkil etmişdir.

# Cari Əməliyyatlar Hesabı üzrə meyillər

*Əlavə 1.*

| | mln. ABŞ dolları ilə | | | |
|---|---|---|---|---|
| | **2015** | **2016** | **İllik dəyişmə** | |
| **Cari Əməliyyatlar Hesabı üzrə Balans** | -222.5 | -1363.4 | -1140.9 | *kəsir artıb* |
| Neft-qaz sektoru | 6548.9 | 4395.3 | -2153.6 | *profisit azalıb* |
| Qeyri-neft sektoru | -6771.4 | -5758.7 | 1012.7 | *kəsir kiçilib* |
| **Xarici Ticarət Balansı** | 5812.4 | 4206.3 | -1606.1 | *profisit azalıb* |
| Neft-qaz sektoru | 11684.8 | 9721.7 | -1963.1 | *profisit azalıb* |
| Qeyri-neft sektoru | -5872.4 | -5515.4 | 357.0 | *kəsir kiçilib* |
| **Xidmətlər Balansı** | -4228.9 | -3154.5 | 1074.4 | *kəsir kiçilib* |
| Neft-qaz sektoru | -3064.5 | -2740.3 | 324.2 | *kəsir kiçilib* |
| Qeyri-neft sektoru | -1164.4 | -414.2 | 750.2 | *kəsir kiçilib* |
| *Nəqliyyat* | 508.6 | 176.0 | -332.6 | *profisit azalıb* |
| *Turizm* | -293.6 | 219.4 | 513.0 | *kəsirdən profisitə keçib* |
| *Rabitə* | -51.8 | -23.8 | 28.0 | *kəsir kiçilib* |
| *Tikinti* | -3496.7 | -2944.9 | 551.7 | *kəsir kiçilib* |
| *Maliyyə xidmətləri* | -13.7 | -4.4 | 9.3 | *kəsir kiçilib* |
| *Hökumət xidmətləri* | -98.5 | -61.2 | 37.3 | *kəsir kiçilib* |
| *Digər xidmətlər* | -783.2 | -515.6 | 267.7 | *kəsir kiçilib* |
| **İlkin gəlirlər Balansı** | -2027.8 | -2472.1 | -444.3 | *kəsir artıb* |
| Neft-qaz sektoru | -2071.4 | -2586.1 | -514.7 | *kəsir artıb* |
| Qeyri-neft sektoru | 43.6 | 114.0 | 70.4 | *profisit artıb* |
| **Təkrar gəlirlər Balansı** | 221.7 | 56.8 | -164.9 | *profisit azalıb* |

# Maliyyə Hərəkəti Hesabı üzrə meyillər

*Əlavə 2.*

| | 2015 | 2016 | İllik dəyişmə | |
|---|---|---|---|---|
| **Maliyyə Hesabı Balansı** | -9025.3 | -2761.6 | 6263.7 | ↑ *kəsir kiçilib* |
| Neft-qaz sektoru | 3557.5 | 905.6 | -2651.9 | ↓ *profisit azalıb* |
| Qeyri-neft sektoru | -12582.8 | -3667.2 | 8915.6 | ↑ *kəsir kiçilib* |
| **Birbaşa investisiyalar üzrə Balans** | 785.9 | 1926.0 | 1140.2 | ↑ *profisit artıb* |
| Neft-qaz sektoru | 1421.4 | 775.7 | -645.8 | ↓ *profisit azalıb* |
| Qeyri-neft sektoru | -635.6 | 1150.4 | 1785.9 | ↑ *kəsrdən profisitə keçib* |
| **Portfel investisiyaları üzrə Balans** | 392.4 | 487.9 | 95.5 | ↑ *profisit artıb* |
| Neft-qaz sektoru | 749.1 | 575.5 | -173.7 | ↓ *profisit azalıb* |
| Qeyri-neft sektoru | -356.8 | -87.6 | 269.2 | ↑ *kəsir kiçilib* |
| **Digər investisiyalar üzrə Balans** | -10205.5 | -5176.1 | 5029.3 | ↑ *kəsir kiçilib* |
| Neft-qaz sektoru | 1385.0 | -446.2 | -1831.2 | ↓ *profisitdən kəsrə keçib* |
| Qeyri-neft sektoru | -11590.5 | -4729.9 | 6860.6 | ↑ *kəsir kiçilib* |

# Qeyri-neft tədiyə balansında tarzlıq meyilləri
## *«Ucuz manat»a reaksiya*

2016-cı ildə «ucuz manat»a reaksiya olaraq tədiyə balansının qeyri-neft bölməsində - həm cari hesab, həm də maliyyə hesabı üzrə tarazlıq meyilləri müşhidə olunmağa başlamışdır:

- ✓ Qeyri-neft sektoru üzrə xarici ticarət kəsri 357 mln. dollar kiçilmişdir;
- ✓ Qeyri-neft sektoru üzrə xidmətlər hesabının kəsri 750.2 mln. dollar kiçilmişdir (xüsusilə turizm və tikinti sektorları hesabına);
- ✓ Qeyri-neft sektoru üzrə birbaşa investisiyalar balansı 635.6 mln. dollarlıq kəsirdən, 1150.4 mln. dollarlıq profisitə keçmişdir;
- ✓ Qeyri-neft sektoru üzrə portfel investisiyaları kəsri 269.2 mln. dollar kiçilmişdir;
- ✓ Qeyri-neft sektoru üzrə digər maliyyə axınları kəsri 6860.6 mln. dollar kiçilmişdir.